

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 204 (23.846)

3 noyabr 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də Şamaxı rayonunda səfərdə olublar. Dövlətimizin başçısı və birinci xanım xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də Şamaxıda "Azərişıq" ASC-nin Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər. Dövlətimizin başçısı Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzini işə salıb.

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı şəhərində Gənclər Parkında görülmüş işlərlə tanış olublar.

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı şəhərində inşa edilən 7 saylı körpələr evi-uşaq bağçasının, Yaradıcılıq Mərkəzinin, Şamaxı şəhər stadionunun, Şamaxı Üzüm Tingçilik Mərkəzinin, Şamaxı rayonunda akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binasının, Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin açılışlarında iştirak ediblər.

## Muxtar respublikada bank sisteminin inkişafı təmin edilib

*Müasir dövrdə iqtisadiyyatın ən aparıcı, eləcə də stimullaşdırıcı sahəsi olan bank sistemi hər bir ölkənin, cəmiyyətin davamlı inkişafının təmin edilməsində və gücləndirilməsində mühüm rol oynayır.*



Muxtar respublikada da bu sahənin normal fəaliyyəti diqqətdə saxlanılmış, yeni bank və filiallar yaradılmış, maddi-texniki baza gücləndirilmişdir.

1 oktyabr 2021-ci il tarixə muxtar respublikada 22 bank strukturu mövcud olmuşdur ki, bunun da 19-u bank və bank filialları, 2-si bank olmayan kredit təşkilatı, 1-i isə kredit ittifaqıdır.

Muxtar respublikanın banklarında hesablaşma və kassa xidmətləri, depozitlər, əmanətlər, kreditlər, bankomat, POS-terminal, lizinq əməliyyatları, pul köçürmələri, kommunal xidmətlər, internet və mobil bankçılıq, SMS məlumatlandırma və xarici valyuta mübadiləsi əməliyyatları aparılır.

Azərbaycan Respublikasının ilk regional bankı olan "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti 2008-ci il 11 sentyabr tarixdə fəaliyyətə başlamışdır. Milli və beynəlxalq banklararası ödəniş sistemlərinin üzvü olan bankın bu gün Bakı şəhərində filial, şöbə və mübadilə şöbəsi, Naxçıvan şəhərində filial və mübadilə şöbəsi, Şərur, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonlarında filialları fəaliyyət göstərir.

Muxtar respublikada əhaliyə göstərilən bank xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində təkcə 2020-ci ildə və cari ilin 9 ayında "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur, Kəngərli və Şahbuz rayon filiallarının, Kapital Bankın Ordubad filialının inzibati binalarının tikintisi başa çatdırılmış, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Culfa rayon filialının inzibati binasının tikintisi davam etdirilmişdir.

2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 164 milyon 893 min 700 manat kredit verilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən 6,9 dəfə çoxdur.

***Yanvar-sentyabr aylarında iqtisadiyyata kredit qoyuluşu, min manat***




2021-ci ilin doqquz ayında verilmiş kreditlərin 18 milyon 336 min 800 manatı və yaxud 11,1 faizi qısamüddətli, 146 milyon 556 min 900 manatı və yaxud 88,9 faizi uzunmüddətli kreditlər olmuşdur. Cari ilin ötən dövründə ümumi kreditlərin 25 milyon 69 min 800 manatı sahibkarlıq subyektlərinə verilmişdir ki, bunun da 8 milyon 580 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 16 milyon 489 min 800 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması" üzrə Tədbirlər Planının, "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın uğurlu icrası, "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası məqsədilə həyata keçirilən mühüm tədbirlər maliyyə sabitliyinin və ümumi inkişafın təminatında mühüm rol oynamışdır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, internet və POS-terminallar vasitəsilə nağdsız ödənişlərin həcmi 2017-ci ilin yanvar-sentyabr aylarında 23 milyon 115 min 297 manat olduğu halda, 2021-ci ilin müvafiq dövründə bu göstərici 85 milyon 860 min 778 manat təşkil etmişdir. 2021-ci ilin yanvar-sentyabr aylarında internet və POS-terminallar vasitəsilə nağdsız ödənişlərin həcmi bir il öncəyə nisbətən 33,6 faiz artmışdır.

1 oktyabr 2021-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 179571-ə çatmışdır ki, bunun da 168032-si və ya 93,6 faizi aktiv hesablardır. 1 oktyabr 2017-ci il tarixə isə açılmış bank hesablarının sayı 21022, aktiv hesabların sayı isə 20936 vahid təşkil etmişdir.

1 oktyabr 2021-ci il tarixə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1502-yə çatdırılmışdır ki, bu da 1 oktyabr 2017-ci il tarixə olan göstəricidən 245 vahid çoxdur.

Muxtar respublikada bank sektorunda əldə olunmuş uğurlu nəticə kimi 2021-ci ilin yanvar-sentyabr aylarında dövriyyəyə buraxılan pul kütləsi ilə bankların kassalarına daxil olan pul kütləsi arasında fərq azalmış, məxaricdə emissiyanın xüsusi çəkisi 21,6 faiz təşkil etmişdir. 2017-ci ilin yanvar-sentyabr aylarında bu göstərici 35,7 faiz olmuşdur.

1 oktyabr 2021-ci il tarixə muxtar respublika ərazisində fəaliyyət göstərən bank strukturlarında 13 milyon 221 min 100 manat əhali əmanəti mövcud olmuşdur ki, bu da 1 oktyabr 2017-ci il tarixə olan göstəricidən 88,4 faiz çoxdur.

İqtisadi fəaliyyətin bütün sahələrini maliyyə axını ilə təmin edən bank sistemi makroiqtisadi sabitliyin qorunub saxlanılmasına, iqtisadi aktivliyin təmin olunmasına yeni imkanlar yaradır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Növbəti test imtahanlarına start verilib

Müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsi, dövlət orqanlarının peşəkar kadrlarla komplektləşdirilməsi Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu sahəsində aparılan islahatların əsas istiqamətlərindən biridir. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş növbəti müsabiqənin test mərhələsinə start verilib.



169,5 vakant vəzifənin tutulması üçün 696 müraciətin qeydə alındığı müsabiqəyə daha çox sənəd təqdim edən dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzi, (414 müraciət) və Dövlət Statistika Komitəsi (128 müraciət) öndə dayanır. Ən sıx müsabiqə vəziyyətinin yarandığı dövlət orqanı isə "ASAN xidmət" Mərkəzidir. Mərkəzin təqdim etdiyi Vətəndaşların qəbulu işinin təşkili sektoru, aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 191 namizəd qeydiyyatdan keçib. Bu isə indiyə qədər təşkil edilmiş müsabiqələrdə qeydə alınan rekord göstəricidir. Həmin sektorun baş məsləhətçi (60 müraciət) və böyük məsləhətçi (56 müraciət) vəzifələri də müsabiqə vəziyyətinin sıx olduğu vakansiyalardır.

Ümumilikdə, 100 sual təqdim olunan test mərhələsində namizədlərin qanunvericilik, Azərbaycan dili, informasiya texnologiyaları və məntiqi təfəkkür bilikləri yoxlanılır. 2 saat 30 dəqiqə vaxt ayrılan imtahandan əvvəl isə iştirakçılara slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilir.

Onu da qeyd edək ki, bu müsabiqədə ilk dəfə olaraq muxtar respublikada fəaliyyət göstərən dövlət teleradio və mətbuat orqanlarında işə qəbul üçün də vakant vəzifələr təqdim olunub. Bu istiqamətdə keçiriləcək esse imtahanında iştirak etmək üçün 10 namizəd, mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün isə 4 namizəd qeydiyyatdan keçib.

Dövlət İmtahan Mərkəzinin yenilənmiş və tam müasir müşahidə kameraları ilə təchiz olunmuş Test Mərkəzində 2-12 noyabr tarixlərində keçiriləcək test imtahanında obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi aparılır. Test imtahanı bitdikdən dərhal sonra namizədlərə test imtahanının nəticəsinə dair arayış təqdim edilir. Test imtahanlarının nəticələri Dövlət İmtahan Mərkəzinin rəsmi internet portalında *(www.dim.nmr.az)* yerləşdirilir. Test imtahanlarında müvafiq keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən oktyabr ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 11 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 10 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması, 1 şəxsdə isə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığortahaqqının ödənilməsi haqqında qəbz" alınmaması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanuna müvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 3 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.



***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Torpaq resurslarından səmərəli istifadə olunur



*Naxçıvan Muxtar Respublikasında torpaqların mühafizəsi, ondan səmərəli istifadə olunması məqsədilə münbitliyin bərpa olunması, eləcə də ekoloji cəhətdən təmiz və keyfiyyətli bol məhsul istehsal olunması mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əkin dövriyyəsinə cəlb edilmiş torpaqlar genişləndirilmiş, yeni suvarma şəbəkələri qurulmuş, yaşıllıq sahələri artırılmışdır. Bütün bunlar isə ekoloji vəziyyətin yaxşılaşdırılmasına, kənd təsərrüfatı məhsulları istehsalının artımına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə təsir göstərmişdir.Torpaqların münbitliyinin artırılması əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həm də gələcək nəsil üçün böyük imkanlar yaradır.*

Qürurla deyə bilərik ki, muxtar respublikanın şəhər və qəsəbələri ilə yanaşı, ən ucqar kəndlərində belə, sosial həyat üçün lazım olan bütün əsaslar yaradılıb. Qeyd edilənlərə uyğun olaraq şəhər və qəsəbələrdə yaşayan əhalinin istirahətinin səmərəli təşkili, yaşıllıqların artırılması, torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün bağ təsərrüfatının yaradılması və istifadəsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən 2019-cu il 10 dekabr tarixdə Qərar qəbul edilmişdir. Qərara əsasən Babək rayonunun ərazisindəki Uzunoba Su Anbarı ətrafında yerləşən 20 hektar istifadəsiz torpaq sahəsi bağ təsərrüfatı yaradılması məqsədilə vətəndaşların istifadəsi üçün ayrılmışdır. Ayrılmış torpaq sahəsi 800 kvadratmetrlik hissələrə bölünməklə 193 bağ təsərrüfatının yaradılmasına imkan verir.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə "Bağ təsərrüfatı üçün torpaq sahəsinin ayrılması və istifadəsi Qaydaları" təsdiq edilmişdir. Bu qaydalar torpaq sahələrinin bağ təsərrüfatlarının yaradılması məqsədilə vətəndaşlara verilməsi və istifadəsinə dair münasibətləri tənzimləyir. Bağ təsərrüfatının obyektləri bağ sahəsi və bağ sahəsi üzərində mövcud olan bina, tikili və infrastruktur vahidlərindən, subyektləri isə bağ sahəsinin dövriyyəsində iştirak edən şəxslərdən, müvafiq icra hakimiyyəti orqanlarından və bağ istifadəçilərindən ibarətdir. Qeyd edək ki, bağ evi vətəndaşların mövsümi istifadəsi, müvəqqəti qalması ilə əlaqədar məişət və digər ehtiyaclarını ödəmək üçün inşa etdiyi əsas və yardımçı tikililərdir.

Bağ ərazilərinin təşkili ərazinin təbii-iqtisadi şəraiti, həmçinin mühəndis, nəqliyyat və sosial infrastruktura nəzərə alınmaqla əlverişli hesab edilən, dövlət mülkiyyətində olan torpaq sahələri hesabına həyata keçirilir və vətəndaşların istirahəti, öz ehtiyacları üçün kənd təsərrüfatı bitkilərinin becərilməsi məqsədilə, bağ evləri və yardımçı təsərrüfat tikililəri inşa etmək hüququ ilə onların istifadəsinə verilməsi nəzərdə tutulmuşdur. Qeyd olunan torpaqların istifadəçiləri torpaqdan təyinatı üzrə istifadə etmək, qadağan edilmiş bitkilər istisna olmaqla, kənd təsərrüfatı bitkiləri becərmək və məhsul üzərində mülkiyyət hüququnu həyata keçirmək, torpaq sahəsində su ehtiyatlarından ehtiyacı üçün istifadə etmək, razılaşdırılmış layihə əsasında bağ evi və yardımçı tikililər inşa etmək, qurğular quraşdırmaq hüququna malikdirlər.

Məlumat üçün bildirək ki, ayrılmış torpaq sahələrində bağ təsərrüfatlarının yaradılması məqsədilə ilkin mərhələdə 30 ədəd modultipli evin quraşdırılmasına başlanılmış və artıq 15 evdə işlər yekunlaşdırılmışdır. Belə ki, ərazidə 10 ədəd 2 otaqlı (47 kvadratmetr) və 5 ədəd 3 otaqlı (52 kvadratmetr) modultipli evlər quraşdırılmışdır. Hər ev üçün ayrılmış torpaq sahəsi çəpərlənmiş və abadlaşdırılmışdır. Ərazidə müasir su, kanalizasiya, elektrik və yol infrastrukturu qurulmuşdur. Modultipli evlərin detalları Türkiyənin dünyanın yüzdən çox ölkəsində layihələr həyata keçirmiş "Karmod" şirkəti tərəfindən istehsal olunmuşdur. Şirkətin məhsulları özündə son texnologiyaları, yüksəkkeyfiyyətli komponentləri birləşdirməklə yanaşı, qısa müddət ərzində böyük layihələrin həyata keçirilməsinə imkan verir.

Evlərin quraşdırılması üçün Türkiyədən mütəxəssislər dəvət olunmuş və işləri həyata keçirən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin işçiləri üçün təcrübə keçmişlər. Bununla da işçilər artıq modultipli evlərin qurulması işlərini tam olaraq həyata keçirirlər.

Evlərin qurulmasında istifadə olunan panellərin içi EPS materialı ilə izolyasiya olunmuşdur. Çöl divarların qalınlığı 10, daxili divarların qalınlığı isə 6 santimetrdir. Birləşdirici elementlər olaraq qalvanizli U və H polad profillərdən istifadə edilmişdir.

Hazırda ərazidə əlavə 15 evin də quraşdırılması üçün işlər davam etdirilməkdədir. Belə ki, evlərin beton konstruksiya işləri yekunlaşdırılmışdır və qısa zamanda evlərin quraşdırılması başa çatdırılacaqdır.

**Nuray ƏSGƏROVA**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər oktyabr ayında da davam etdirilmişdir. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 38 əcnəbi aşkarlanaraq qanunvericiliyin tələblərinə uyğun barəsində müvafiq tədbirlər görülmüşdür.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 1187 müraciət daxil olmuşdur. Onlardan 668-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, müvəqqəti olma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur.

Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 519 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 207-si elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti**

## Təlim davam edir



"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən birləşmələrlə keçirilən komanda-qərargah təlimi davam edir.



Təlimdə müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən Naxçıvan Qarnizonu Qoşunlarının aidiyyəti üzrə birləşmə və hissələrinin praktik fəaliyyətlərə cəlb olunan bölmələri "Həyəcan" siqnalı ilə təlim rayonuna çıxarılıb.

Döyüşü idarəetmə mərkəzlərində qoşunların fəaliyyətinin əlaqələndirilməsi üzrə yaradılmış işçi qrupların müasir texniki vasitələr üzərində məlumat mübadiləsini aparmaq bacarıqları yoxlanılır.

Təlimdə müxtəlif qoşun növü birləşmələrinin qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, ayrı-ayrı tapşırıq yerinə yetirən taktiki və xüsusi qrupların fəaliyyətinin uzlaşmasına nail olmaq, komandirlərin yaranmış şəraitə uyğun olaraq qısa zamanda doğru qərar qəbul edib tabelikdə olanlara çatdırmasını təmin etmək əsas məqsədlər kimi qarşıya qoyulub.

Komanda-qərargah təlimi noyabrın 6-dək davam edəcək.

**Nəriman NƏCƏFOV**

## Qış mövsümündə heç bir çətinlik yaşanmayacaq

### *Şərur rayonunda həyata keçirilən tədbirlər bu qənaətə əsas verir*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin cari il avqust ayının 28-də 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirəsində rayon icra hakimiyyətlərinə də bir sıra tapşırıqlar verilib. Ötən dövr ərzində həmin tapşırıqların icrası diqqət mərkəzinə çəkilib. Şərur rayonunda da qarşıya qoyulan vəzifələrin icrasına ciddi önəm verilib. Bu günlərdə əlaqə saxladığımız aidiyyəti təşkilatlarda görülən işlərlə tanış olduq.*



Öyrəndik ki, rayonun elektrik təsərrüfatının qış mövsümündə fasiləsiz işləməsi, elektrik enerjisi sahəsində itkinin minimuma endirilməsi və küləkli hava şəraitində məftillərdə yarana biləcək problemlərin qarşısını almaq məqsədilə 140 kilometr hava xətti ağaclardan təmizlənib, 10 və 0,4 kilovoltluq transformator yarımstansiyaları və hava xətləri baxışdan keçirilib, mövcud olan texniki qüsurlar aradan qaldırılıb. Rayon mərkəzinin işıqlanma sisteminin qış mövsümünə hazır vəziyyətə gətirilməsi üçün park və xiyabanlar daxil olmaqla, ümumilikdə, 2 min 200 metr məsafədə məftillər təmir edilib, müxtəlifgüclü lampalar dəyişdirilərək yenisi ilə əvəz olunub. 7 transformator, 1800 metr məftil, 10 dib gövdə, 1100 metr katanka sim, 60 keçid izolyatoru, 25 dayaq, 2600 metr müxtəlif diametrli kabel, 40 cərəyan transformatoru, 1100 litr transformator yağı, 10 kilovoltluq 3 xətt ayırıcısı, 0,4 kilovoltluq 18 avtomat açar alınaraq rayon Elektrik Şəbəkəsinin anbarında ehtiyat kimi saxlanılır. Rayonun sel suları təhlükəsi olan ərazilərində yerləşən hava xətləri və transformatorlar yoxlanılaraq qabaqlayıcı tədbirlər görülüb. İş texnikaları saz vəziyyətə gətirilib, lazım olan ehtiyat hissələri əldə edilib və elektrik enerjisindən qanunsuz istifadə hallarının qarşısının alınması üçün nəzarət tədbirləri gücləndirilib, yüksəkixtisaslı mütəxəssislər tərəfindən mütəmadi olaraq işçi heyəti ilə texniki təhlükəsizlik tədbirləri ilə əlaqədar nəzəri praktik yığıncaqlar keçirilib.

Rayonun yaşayış məntəqələrində qaz xətlərinin qış mövsümünə davamlılıq vəziyyəti yoxlanılıb, bəzi xətlərdə cari təmir işləri aparılıb. Hazırda rayon ərazisində quraşdırılmış müasirtipli 240 qazpaylayıcı şkafdan 122 ədədi istismardadır. 118 ədəd qazpaylayıcı şkaf isə qış mövsümündə istismara veriləcək. Abonentlər tərəfindən qaz sayğaclarına müdaxilənin qarşısını almaq məqsədilə yerlərdə 30 mühafizə qutusu quraşdırılaraq mühafizə qutularının sayı 14 min 255-ə çatdırılıb. Bütün qazpaylayıcı şkaflara texniki baxış keçirilib, lazım olan tədbirlər görülüb. Texniki səbəbdən dayanmış 94 sayğac dəyişdirilərək yenisi ilə əvəz olunub. Baxış zamanı yerüstü və yeraltı xətlərdə qaz sızmaları aşkar edilərək qarşısı alınıb. Orta və aşağı təzyiqli qaz boru xətlərinin üzərində quraşdırılmış müxtəlifdiametrli kran və siyirtmələrə baxış keçirilib, ehtiyac duyulan bəzilərində təmir işləri aparılıb, 4 siyirtmə yenisi ilə əvəz olunub, filtrlər təmizlənib və qoruyucu qurğular yoxlanılıb. Qaz istismar sahəsində işləyən işçilərin, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə 44 nəzarətçi-çilingər və dispetçerdən 37-si ixtisasartırma kursuna cəlb olunub.

Rabitə sahəsində də xeyli iş görülüb. İstismarda olan 53 generator qurğusunun yağı dəyişdirilib, 2 generator təmir edilib. Bütün generatorların akkumulyatorlarının sazlığı yoxlanılaraq mövsümə hazır vəziyyətə gətirilib. Rayon mərkəzində və bir sıra kəndlərdə kabelkanalizasiya quyuları təmizlənib, quyu qapaqları dəmir qapaqlarla əvəz olunub. Ümumiyyətlə, 40 min 500 metr uzunluğunda müxtəlif tutumlu rabitə xəttində əsaslı və cari təmir işləri aparılıb. Təmir-bərpa işləri zamanı 128 dirək yenisi ilə əvəz olunub, 81 dirəyin yeri dəyişdirilib, telefon kanalizasiya xətlərinin quyu və borularında təmir işləri aparılıb. İstismarda olan avtomobillərə və elektrik avadanlıqlarına baxış keçirilib, dirəklərin yararlılığı yoxlanılıb və onlar arasındakı məsafə normativə uyğun nizamlanıb.

Rayonun təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin və inzibati ərazi dairələri üzrə nümayəndəliklərin payız-qış mövsümündə fasiləsiz işinin təmin etmək məqsədilə veriləcək yanacaq və qışa hazırlıqla bağlı tələb olunan digər avadanlıqların alınması üçün aidiyyəti üzrə tapşırıqlar verilib. Rayon üzrə 53 təhsil, 56 səhiyyə, 104 mədəniyyət müəssisəsi və 48 inzibati ərazi dairəsi üzrə nümayəndəlik istilik sistemi ilə işləyir. Hazırda abadlıq və yenidənqurma işləri aparılan Şərur şəhərində Mədəniyyət Sarayı, Mərkəzləşdirilmiş Kitabxana Sistemi və Çərçiboğan kəndində tikilən yeni obyektlər yaxın gələcəkdə müasir istilik sistemi ilə təchiz olunacaqdır.

Rayonda istilik sistemi ilə işləməyən səhiyyə və mədəniyyət müəssisələrinin tələbatı öyrənilib, ümumilikdə, 3 min 600 litr yanacağa ehtiyac olduğu müəyyən edilib və sifariş verilib.

Rayonun əhatə etdiyi avtomobil yollarında təhlükəsiz hərəkətin təmin olunması üçün Şərur Rayon Yol-Təmir Tikinti İdarəsinin balansında olan texnikalar təmir edilib. Qış təkərləri və zəncirlər alınıb ehtiyatda saxlanılıb. Eyni zamanda qış mövsümü üçün 250 ton qum və 80 ton duz ehtiyatı yaradılıb, 300 ton isə əlavə qum ehtiyatının yaradılması nəzərdə tutulub.

Kommunal Müəssisələr Kombinatının balansında olan 4 kommunal təyinatlı texnika, 1 ekskavator, 1 qartəmizləyən maşın təmir edilib, digər ehtiyat tədbirləri görülüb.

Mənzil İstismar Sahəsi tərəfindən payız-qış mövsümü ilə bağlı Şərur şəhərində yaşayış binalarının çardaq örtüklərində təmir işləri aparılıb, onların giriş qapıları və pəncərələri təmir olunub, bütün binaların tüstü bacaları təmizlənib. Binaların zirzəmilərinin, dam örtüklərinin, su-kanalizasiya və istilik sistemi borularının təmiri üçün kifayət qədər su və müxtəlif diametrlik vintillər alınaraq anbarda saxlanılıb.

İçməli su və kanalizasiya sistemlərinin normal işləməsini təmin etmək məqsədilə rayon ərazisində 15,13 kilometr məsafədə içməli su xəttində, 6,37 kilometr məsafədə suvarma boru xəttində, 16,82 kilometr məsafədə isə təzyiqli boru xəttində təmir işləri aparılıb, 301 subartezian nasosu əsaslı təmir olunaraq yenidən istismara verilib, 29 yeni artezian quyusu qazdırılıb. Bunlarla yanaşı, 0,75 kilometr məsafədə içməli su xətti çəkilib, subartezian quyularında və içməli su xətlərində 16 paylayıcı quraşdırılıb, 0,36 kilometr məsafədə isə kanalizasiya xətti çəkilib.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar hərbi hissələrin yun corablarla və yun boyunluqla təmin edilməsi istiqamətində rayon Məşğulluq Mərkəzi tərəfindən iş aparılaraq corab toxuyan sağlamlıq imkanları məhdud 6 qadınla müqavilə bağlanılıb. Bağlanmış müqavilə əsasında vətəndaşlar tərəfindən toxunacaq geyimlərin aidiyyəti üzrə təhvil verilməsi təmin olunacaqdır.

Ümumilikdə, rayonu əhatə edən bütün idarə və müəssisələr, Şərur şəhərində yerləşən yaşayış binaları, məktəblər, mədəniyyət müəssisələri, səhiyyə obyektləri və inzibati ərazi dairələri üzrə 148 qazanxanada işləyən işçilərin kurs keçmələri barədə şəhadətnamələri yoxlanılıb və 34 nəfər qazanxana maşinisti kursuna cəlb olunub.

**Muxtar MƏMMƏDOV**

“Şərq qapısı” – 100

# Birəsrlik “ömrün” çözələnən xatirələri




### Ucudüyməli perolu qələmim, poçt qutusu və poçtalyon Abdulla kişi

Ötən günləri xatırlayanda gözlərim önündə ilk anda məktəb illərində istifadə etdiyim ucudüyməli perosu olan qələmim canlanır. Bir də o illərdə kəndimizdəki “Kənd soveti” deyilən idarə binasının önünə vurulmuş poçt qutusu və ömrünün yeddinci on ilini yaşayan poçtalyon Abdulla kişi… Deyimmi, niyə? Ona görə ki, xatırladığım bu unudulmaz nüanslar, ömrümün ən əziz, ən mehriban illərindən qalan yadigarlardır.

...1968-ci ildə səkkizinci sinif şagirdi olduğum vaxt qış gecəsinin birində dağlar qoynunda yerləşən, hər bucağında bulaqlar çağlayan Şərur rayonunun Axura kəndinin əməksevər qızlarının tütün şitillərini becərmələri haqqında ucudüyməli perolu qələmimlə şagird dəftərinin vərəqinə yazdığım məqaləni zərfə qoyub poçt qutusuna atdım və poçtalyon Abdulla kişinin öz əlləri ilə qutunu açmasını, zərfləri götürüb çantasına qoymasını ürək çırpıntısı ilə izlədim. Və mənim keçirdiyim hisslərdən heç kimin xəbəri olmadı. Ancaq günlərin birində məktəbdən evə qayıdarkən yol boyunca adamlar məni təbrik edirdilər. Məqaləm “Şərq qapısı” qəzetində dərc olunmuşdu. Bir kənd uşağı, bir məktəbli üçün bundan böyük fərəh, sevinc ola bilməzdi. O gündən iki ildən artıq bir müddətdə həmin qələmimlə yazdığım, poçt qutusuna atdığım, Abdulla kişinin rayon mərkəzinə çatdırdığı və oradan da Naxçıvan şəhərinə yola salınan zərflərdəki müxtəlif mövzulu məqalələrim “Şərq qapısı” qəzetinin səhifələrində oxuculara çatdırıldı və məni qəzetin ştatdankənar müxbiri kimi tanıtdı.

…1970-ci ildə alman faşizmi üzərində qələbənin 25 illiyi münasibətilə kəndimizdəki məktəbin riyaziyyat müəllimi, ehtiyatda olan kapitan, müharibədə “Qırmızı Ulduz” ordeni ilə təltif olunmuş Kazım İmanovun igidliyindən bəhs edən “Siz Qərbə doğru addımlayanda, mən hələ anadan doğulmamışdım” publisist yazım qəzetin yubiley nömrəsində dərc olunmuşdu. O vaxt Naxçıvan Pedaqoji Məktəbində təhsil alırdım. Bu məqalə ilə “Şərq qapısı” qəzeti məni ədəbi ictimaiyyətə bir daha tanıtdı. Beləcə, “Şərq qapısı” yuxusuz gecələrimin bəhrəsi olan məqalələrin, zarisovkaların, oçerk və hekayələrin carçısına çevrildi. Muxtar respublikamızın əzəmətli dağlarını, gursulu dərələrini, sərin bulaqlarını, saf havalı yaylaqlarını, bol məhsullu tarlalarını, min bir nemət yetişdirən zəhmət adamlarını tərənnüm edən publisist yazılarıma sevimli qəzetimiz geniş yer ayırdı. Şərur rayonunun dağlar qoynuna söykənmiş Havuş, Axura, Şahbulaq, Yuxarı Yaycı, Tənənəm kimi kəndlərinin sosial vəziyyətləri, burada yaşayan, sinələri xalq yaradıcılığı nümunələri ilə coşub-daşan söz adamlarının söylədiklərini “Şərq qapısı” qəzeti vasitəsilə geniş oxucu kütləsinə çatdırdım. Qəzetin tez-tez müraciət etdiyi “Xalq deyimləri” rubrikasında mənim də topladığım nümunələrə yer verilirdi.

### Yaradıcılıqlarına və səmimiyyətlərinə dərin hörmət bəslədiyim baş redaktorlar, şöbə müdirləri, ədəbi işçilər…

…Dönüb dünənə baxanda sevincimdən ürəyim köksümə sığmır, qəlbim fəxrlə döyünür. Mənim imzamla dərc olunan yazıların xoşbəxtliyi onda idi ki, o illərdə qəzetə oxucular tərəfindən yüksək qiymətləndirilən, dərin hörmət sahibləri, tanınmış jurnalistlər baş redaktorluq edirdi: Rəşid Qazıbəyov, Vahid Bağırov, Sənubər Kərimova, Akif Axundov, Səxavət Kəngərli, Məmməd Məmmədov…

Bu baş redaktorlar “Şərq qapısı” qəzetinin hər bir sayının maraqlı və məzmunlu materiallarla təmin olunmasında, oxucu qəlbinə yol tapmasında ömürlərini şam kimi əridirdilər.

Biz kənar müəlliflərin yaradıcılıqlarını istiqamətləndirmək üçün uzaq dağ kəndlərinə adımıza məktublar göndərir, hansı sahələri qəzetdə daha çox işıqlandırmalı olduğumuzu tövsiyə edirdilər. Bu məktublardan ruhlanaraq Ulu Tanrı tərəfindən torpaqlarımıza bəxş edilmiş misilsiz sərvətlər, zəhmətkeş insan əlləri ilə yetişdirilən min cür nemətlər, elm və təhsil sahəsində uğurlar qazanan müəllimlər haqqında yazdığım məqalə və oçerklər öz yazı tərzinə, məna və məzmununa, foto və tərtibatına görə oxucuların diqqətini cəlb edirdi. Publisist yazıların, oçerklərin yazılmasında və çapında qəzetin əməkdaşlarından Əli Şamilovun, Möhsün Möhsünovun, Maqsud Mahmudovun, Afiq Haqverdiyevin, Xuraman Sadiqovanın və başqalarının xidmətləri əvəzsiz idi…

Əlbəttə, mənim yaradıcılığımda poeziya janrı əsas yeri tutduğundan “Şərq qapısı” qəzetinin Mədəniyyət şöbəsinin müdiri, şair Hüseyn Razinin qəbulunda daha çox olurdum. Əsl sənət adamı, sözdən – poeziyadan yoğurulan, ilk baxışdan zəhmli və qaradinməz görünən H.Razi poeziya yollarında sönməyən, yolumuza nur saçan məşəlimiz idi. Bizi poeziyanın çətin və əzablı yollarında sınadı, adi və ucuz şöhrətdən uzaq tutdu, “dəmiri isti-isti döydü”. Onun nə tənqidi, nə də tərifləyici yazılarında ikili hisslər gördük. Sözünü sərt dedi, məsləhətlərini təmiz ürəklə bildirdi, şeirlərimizin qəzetin “Ədəbiyyat” səhifəsində dərcinə imza atdı, uğur və nöqsanlarımızı açıb göstərdi, “Uğurlu yol” yazdı. Azərbaycan ədəbiyyatında bu gün öz dəstxəti ilə tanınan Asim Yadigar, Nəriman Zeynalzadə, Vaqif Məmmədov, Nizami Muradoğlu, Zeyqəm Vüqar, Məmməd Tahir kimi onlarla şair və yazıçı H.Razi qayğısını dadan ədəbiyyat adamlarıdır. “Şərq qapısı” kitablarımız nəşr olunmadığı halda bizi müxbir, publisist şair kimi tanıtdı. Sevimli qəzetin redaksiya heyətinin təşkil etdiyi seminarlarda, konfranslarda, görüş və müsabiqələrdə iştirakımız təmin olundu… Bu kimi tədbirlərdə qaliblər olduq, mükafatlar aldıq.

### “Aşkarlıq” və “demokratiyanın” bəxş etdiyi təzadlar

Keçmiş Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçovun 1986-cı ildən başlanan aşkarlıq və demokratiya siyasətindən sonra ortaya atılan saxta və qondarma Dağlıq Qarabağ problemi məsələsi, bu günümüzün milli satqınlarının xəyanəti ucbatından torpaqlarımızın işğalı, başımıza gətirilən faciələr “Şərq qapısı” qəzetinin də nəşrinə öz mənfi təsirini göstərdi.

1990-cı il yanvar ayının 18-dən başlayaraq Sədərək və Şərurun bəzi kəndləri top atəşinə tutulur, ermənilər rus əsgərlərinin köməyi ilə torpaqlarımıza basqınlar edir, dağıntılar və qırğınlar törədirdilər. Biz qələm sahibləri də döyüş nöqtələrində olur, müdafiə mövqelərinə gedir, düşmənə sinə gərən könüllü döyüşçülərdən müsahibələr alır, şəhid vermiş ailələrə baş çəkir, xəstəxanalarda yaralılarla görüşürdük. Qarşılaşdığımız hər bir hadisəni qələmə alaraq heç bir əlavələrə və yanlışlıqlara yol vermədən reportajlar hazırlayır, torpaqlarımız uğrunda canlarını qurban vermiş şəhidlərimiz haqqında operativ şəkildə “Şərq qapısı” qəzeti vasitəsilə ictimaiyyətə məlumatlar çatdırırdıq. “Böyük sovet elinə” inamımızın qırıldığından yazırdıq.

Keçmiş SSRİ-nin qorxunc silahları və qəddar zabitləri ilə Sədərək kəndinə amansız hücum edən, körpə uşaqların, silahsız insanların ömrünə son qoyan erməni cəlladlarının vəhşiliyinə etiraz olaraq yazdığım “Mənim inamımı güllələdilər” adlı poemamı o çətin anlarda “Şərq qapısı” qəzetinin baş redaktoru Akif Axundova təqdim etdim. Moskvanın hədələrinin hələ də “at oynatdığı” bir vaxtda poema qəzetdə çap olundu. “Şərq qapısı”nın onsuz da ağır duruma düşdüyü o günlərdə torpaqlarımız uğrunda şəhid və ya qazi olmuş oğul və qızlarımızın igidliyindən bəhs edən silsilə yazılar da çap etdirdik. “Şərq qapısı” qəzeti mərd və qorxmaz əsgər kimi düşmənlə döyüşə atılaraq öz döyüşkən yazıları ilə düşmənə qarşı mübarizə aparırdı.

Hətta bəzi rəhbərlər: “Bu ağır vəziyyətdə bizə qəzet lazım deyil”, – deyə yaxalarını kənara çəksələr də, hərc-mərcliyə, mənəm-mənəmliyə, hədə-qorxuya əməl qoymayan qəzet əməkdaşları öz müqəddəs vəzifəsini şərəflə yerinə yetirirdilər.

### Bəxtinə Günəş doğan “Şərq qapısı”

Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana gəlməsi, muxtar respublika Ali Məclisinin Sədri kimi fəaliyyət göstərməsi, ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələrinin də bəxtinə Günəş doğdu və onların məsuliyyəti birə-on qat artdı. Ulu öndər o ağır illərdə deyirdi: ***“Qəzet bir güzgüdür, oxucu orada özünü görməlidir, həyatın işıqlı tərəfini də, zülmətini də orada tapmalıdır… Mənə məlum olmayan nöqsanları üzə çıxaran hər bir jurnalistə minnətdar olacağam”.***

Ümummilli liderimizin layiqli davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində “Şərq qapısı” qəzetinə qayğı dövlət səviyyəsində həyata keçirilməyə başlanıldı.

“Şərq qapısı” qəzetinin nəşr olunduğu “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin tamamilə yenidən qurulması, müasir çap avadanlıqları ilə təmin edilməsi, jurnalistlərin əməyinin qiymətləndirilməsi, qəzetə ayrılan maliyyə yardımları dediklərimizin əyani təsdiqidir. Ümumiyyətlə, bu gün “Şərq qapısı” qəzeti ona göstərilən qayğıya, jurnalistikaya və jurnalist əməyinə, azad sözə, azad fikrə verilən yüksək dəyərə görə dünyanın bir çox ölkələrinə nümunə göstəriləcək səviyyədədir.

Qəzetin yazarları da öz mövzularını muxtar respublikada gedən quruculuq işlərinə, yenilənmə proseslərinə və digər sahələrə istiqamətləndirmişlər. Ən uzaq dağ kəndlərinə çəkilən elektrik xətləri, gur alovlanan mavi qaz, telefon, televiziya verilişləri üçün quraşdırılan elektron aparatlar, müasir məktəb və sosial binalar, qara örtüyə bələnmiş şümşad yollar, zəhmət adamlarının yetirdikləri min cür nemətlər mövzuya dönüb “Şərq qapısı”nın səhifələrində ellərə çatdırılır. Neçə-neçə görkəmli şəxsiyyətin keçdiyi çətin, şərəfli yoldan bəhs edən yazılar gözəl tərtibatla qəzetin səhifələrində çap olunmaqdadır.

Bəli, ömrümün acılı-şirinli 53 ilini qəlb dostu, ömür sirdaşı bildiyim, qəlbimin ən əziz guşəsində özünə yer edən, ürəkdən gələn nəsr və nəzm parçalarını səhifələrində çap etdirdiyim, hər bir sayının gəlişini həyəcanla gözlədiyim sevimli qəzetimin 100 yaşı tamam olur. Yubilyarın ad gününü geniş və hərtərəfli qeyd etmək üçün muxtar respublika Ali Məclisinin Sədri Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq respublikada silsilə tədbirlər həyata keçirilir. Bütün bunlar əziz dost kimi mənim də qəlbimə fərəh hissləri gətirir.

Sevimli qəzetimizin yubileyinə öz ürək sözlərimi ərməğan edirəm:

– Qədim Naxçıvanımızın müqəddəs sənət məbədi olan “Şərq qapısı” qəzeti! Yaşadığın bir əsrdə saf və müqəddəs kəlmələrinlə həqiqətləri yaymısan səhifələrində. Hər yazın çəkilən zəhmətin ətri, hər şeir parçası qu zümzüməsi kimi qəlbləri ovsunlayıbdır. Bu illər ərzində neçə-neçə kövrək qələmlərlə Vətən, Zəfər nəğmələrini yaymısan ellərə. Günəş kimi məşəl olmusan qaranlıq yollara.

Zamanın sərt illəri nə yolunu, nə də səmtini dəyişə bilib – haqqa, ədalətə xidmət etmisən. Birəsrlik “ömrünün” yarım əsrdən çoxundakı işıq üzü görən saylarında mənim də imzam əbədiləşib. Bu gün də qələmə aldığım yazılarımın ilk dəfə “Şərq qapısı” qəzetində dərc olunması həvəsindəyəm. Dərin və səmimi məhəbbətimi adına ünvanladığım şeirin bir bəndi ilə tamamlayıram:

*Tanrı yer üzünü nura bələyir,*
*Üzlərə min fərəh, sevinc ələyir,*
*Bu gözəl günündə qəlblər söyləyir:*
*Elin güzgüsüsən, sən “Şərq qapısı”,*
*100 yaşın mübarək, şən “Şərq qapısı”!*

**İbrahim YUSİFOĞLU**
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Prezident təqaüdçüsü***

***Məqalə “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

# “Bədii dəri işləmə sənəti” dərnəyi yaradılıb



Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yeni yaradılan “Bədii dəri işləmə sənəti” dərnəyinin təqdimatı olub.

Təqdimatda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, muxtar respublikada ümumtəhsil məktəbləri ilə yanaşı, məktəbdənkənar təhsil müəssisələrinin də fəaliyyəti üçün nümunəvi tədris şəraiti qurulur, müxtəlif innovativ dərnəklər yaradılır.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında 2019-cu ildən başlayaraq məktəbdənkənar təhsil müəssisələrində 60-dan çox innovativ dərnək yaradılıb. Bu isə şagirdlər tərəfindən müasir texnologiyaların mənimsənilməsinə, onların yeni bilik və bacarıqlara yiyələnməsinə, vətənpərvərlik ruhunda tərbiyə olunmasına, xalq yaradıcılıq sahələrinin və yeni sənət növlərinin öyrənilməsinə geniş imkanlar açıb. Uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan innovativ dərnəklər milli-mənəvi dəyərlərin qorunmasını, gələcək nəsillərə çatdırılmasını, uşaqların intellektual səviyyələrini inkişaf etdirmələrini təmin etməklə bərabər, onlara gələcəkdə peşə seçimində düzgün qərar verməyə kömək edir.

Rəhman Məmmədov bildirib ki, görülən işlərin davamı olaraq 2021-2022-ci tədris ilində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yeni “Bədii dəri işləmə sənəti” dərnəyi də yaradılaraq şagirdlərin istifadəsinə verilib.

Bildirilib ki, “Bədii dəri işləmə sənəti” xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə ehtiva edən el sənətidir. Bu dərnəyin yaradılmasında məqsəd milli dəyərlərimiz olan bədii dəri işləmə sənətini şagirdlərə öyrətmək, maddi və mədəni irsin qorunması və inkişaf etdirilməsinə töhfə verməkdir.

Qeyd edək ki, yeni yaradılan “Bədii dəri işləmə sənəti” dərnəyi 20 A4 ölçülərində xüsusi dəri, 5 müxtəlif formalı alətlər dəsti, 2 bıçaq dəsti, 1 çox alətli dəri tikmə dəsti, 10 oyma bıçağı, 3 boya dəsti, 5 ölçü lövhəsi, 5 taxta saplı toxmaq, 2 yandırma aparatı ilə təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***“Naxçıvan” Universitetində “Bədii ədəbiyyatda ana dilimizin tərənnümü” mövzusunda elmi konfrans keçirilib.***

# Elmi konfrans keçirilib



Konfransda dilin hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitə olduğunu vurğulayan “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, dil hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Bu qənaət tarixin bütün dövrlərində bəşər övladlarının qeyd-şərtsiz qəbul etdiyi həqiqətdir. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir. İnsanın təkamülündə ana dilinin rolu böyükdür.

“Poetik əsərlərin dilində ana dilinin tərənnümü” mövzusunda çıxış edən professor Sədaqət Həsənova bildirib ki, dil insanlar arasında ünsiyyət vasitədir. Azərbaycan dili də dünya dilləri içərisində bir ünsiyyət vasitəsi kimi öz yerini qoruyub saxlayıb. Məşhur şəxsiyyətlər Azərbaycan dilinə həmişə yüksək qiymət veriblər.

“Cəlil Məmmədquluzadə yaradıcılığında ana dili məsələsi” mövzusunda çıxış edən dosent İman Cəfərli deyib ki, Cəlil Məmmədquluzadə öz yaradıcılığında ədəbi dillə xalq dilinin vəhdətinə nail olmaq işində əsl inqilaba imza atmış qüdrətli sənət adamıdır. Faktlar deməyə əsas verir ki, Mirzə Cəlil tarixin ən çətin dövrlərində belə, dil probleminin həllinə ciddi önəm verib.

Sonda tələbələrin sualları cavablandırılıb.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Şəhidlərin anım günü qeyd olunub



*Sədərək rayonunda Vətən müharibəsi şəhidləri Məmmədhəsən Sadıqlının, Rüfət Gözəlovun oktyabrın 30-da və Tağı Abdullazadənin isə noyabrın 2-də şəhadətə qovuşduqları gün anım tədbirləri keçirilib.*

Mərasimdə iştirak edən rayon İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Vüqar Süleymanov bildirib ki, Vətən müharibəsi dövlətçilik tariximizin ən parlaq səhifələri yazıldı, düşmən üzərində möhtəşəm qələbə qazanıldı. Ordumuzun əks-hücum əməliyyatları nəticəsində düşmənə layiqli cavab verildi. Bu müharibə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, həm də mahir sərkərdəlik bacarığını, çətin, ağır şəraitdə düzgün qərar vermək istedadını, dövlət-xalq-ordu birliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Tarixin bütün dövrlərində öz vətənpərvərliyi, cəsarəti, igidliyi və qəhrəmanlığı ilə tanınan naxçıvanlılar həmişə öz sözlərini deyiblər. Vətən müharibəsində qazanılan Qələbədə də öz imzası var yurdumuzun igidlərinin. Bir aydan çox davam edən Vətən müharibəsində boy göstərən, dastan yazan igidlərimizin bəziləri qəhrəman, bəziləri qazi kimi öz yurdlarına qayıtdılar. Bu azadlıq mücadiləsində şəhidlərimiz də oldu. Naxçıvanın qeyrət qalası Sədərəyin qəhrəman oğullarından Tağı Abdullazadə, Rüfət Gözəlov və Məmmədhəsən Sadıqlı da Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizdir.





Qeyd edilib ki, şəhid məzarları başında dayananların arasında gənclərimiz və məktəbli övladlarımız da vardır. Burada uyuyan qəhrəmanlarımızın həyat yolu onlara əsl vətənpərvərlik nümunəsidir.

Şəhid atası, Dəmirçi kənd sakini Meydan Sadıqov deyib ki, humanist rəhbərimizin və xalqımızın sülh tərəfdarı olmasına baxmayaraq, o, mənfurlar öz caynaqlarını torpağımızdan çəkmir, əksinə, tez-tez atəşkəsi pozur, yeni torpaqlar eşqinə düşürdülər. Və həmin gün yeni bir hücumun qarşısında səbir kasası daşdı, ordumuzun əks-hücumu başlandı. Atalardan oğullara ərməğan olan sıx birliyi, dövlətə, Vətənə sədaqəti bir daha sübut edib Vətən müharibəsində qalib gəldik. Məmmədhəsən kimi yüzlərlə igid öz canını Vətənə fəda etdi. Onlar tarixin gedişini dəyişdirib yeni bir qəhrəmanlıq səhifəsi açdılar. Belə oğullarla ancaq qürur duyuruq. Düşmən sevinməsin ki, oğullarımızı şəhid etdi. Biz bir ölüb, min dirilirik!

Sədərək rayonunun Dəmirçi kəndindən olan şəhid anası Ruhəngiz Gözəlova diqqətə çatdırıb ki, bu gün Azərbaycan qadını tarixin heç bir dövründə olmadığı qədər güclü, qürurludur. Çünki oğullarımız, qardaşlarımız illər öncə xəyanət ucbatından itirilən torpaqları geri qaytardı. Əzəli torpaqlarımızı ana Vətənimizə qaytarmaqla alnımıza yazılan ləkəni sildi. O igidlər Vətəni öz anası bildilər, onun bütövlüyü uğrunda canlarından keçdilər. Dövlətimiz hər zaman biz şəhid ailələrinin yanındadır. Biz fəxr edirik ki, övladlarımız belə bir müqəddəs amal uğrunda canından keçiblər.

Sədərək döyüşlərinin iştirakçısı, şəhid atası İlham Abdullayev dövlətimizə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirərək deyib ki, muxtar respublikamızda naxçıvanlılar ötən əsrin əvvəlində də bu cəsarəti və hünəri göstərib sərhədlərimizi düşmənlərdən qoruyublar. Həmin illərdə silah-sursatsız səngərlərdə günlərlə ac-susuz qalsaq da, yüzlərlə şəhid versək də, torpağımızı qoruduq. Vətən müharibəsində də torpağımızın igidləri şücaətlərini göstərdilər. Muxtar respublikamızda şəhid ailələri və yaxınları dövlətimiz tərəfindən hər cür qayğı ilə əhatə olunublar.

Sonda şəhidlərimizin ruhuna dualar oxunub, onların ailələri ziyarət edilib.

✍ **Ramiyyə ƏKBƏROVA**

## "Zəfər cəngi" adlı rəsm sərgisi açılıb

*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 8 noyabr – Zəfər Gününə həsr edilmiş "Zəfər cəngi" adlı rəsm sərgisi keçirilib. Əvvəlcə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.*



Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, 27 sentyabr tarixindən başlanan və 44 gün davam edən şanlı Vətən müharibəsi xalqımızın Qələbəsi ilə başa çatdı və illərdir, həsrətini çəkdiyimiz torpaqlarımıza qovuşduq. Bu böyük Zəfərin qazanılmasında Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin siyasi, qətiyyətli iradəsi və vətənpərvər oğullarımızın şücaəti, qəhrəmanlığı böyük rol oynadı. Ölkəmizin digər bölgələri kimi Naxçıvanın da qeyrətli oğulları müharibədə qəhrəmanlıq, fədakarlıq nümayiş etdirdilər, çoxlu şəhidlər verdik. Qəlbi, ruhu Vətən, torpaq, yurd sevgisi ilə yoğurulmuş şəhidlərimizin əziz xatirəsi daim qəlbimizdə yaşayır. Şəhid ailələrinə xüsusi diqqət və qayğı göstərilir. Naxçıvanlı rəssamlarımız çəkdikləri rəsm əsərləri ilə onların ruhunu əziz tuturlar.

Azərbaycan Respublikasının Əməkdar rəssamı Fikrət Babayev, sənətşünas Nizami Alıyev və digər rəssamlar çıxış edərək 44 günlük şanlı Zəfər tariximizdən, ordumuzun şücaətindən danışıblar, əldə edilən Zəfərin xalqımıza baş ucalığı gətirdiyini və həmişə yaddaşlarda qalacağını qeyd ediblər.

Sonra sərgiyə baxış olub. Çəkilmiş şəhid portretləri onların ailə üzvlərinə təqdim edilib. Şəhid ailələri göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, sərgidə tarixi Zəfəri əks etdirən rəsm əsərləri də yer alıb. Onların içərisində Arzu Novruzovun "Zəngəzur dəhlizi", Fikrət Babayevin "Cəsur döyüşçülər", Ülviyyə Məmmədovanın "Xarıbülbül", Telman Abdinovun "Zəfər bizimlədir", Əli Səfərlinin "Dəmir yumruq" və digər rəsm əsərləri vardır. 26 rəssamın 35 rəsm əsərinin nümayiş etdirildiyi rəsm sərgisi bir həftə davam edəcək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan karateçilərindən ölkə birinciliyində 3 medal

*Bakı şəhərində Azərbaycan Milli Karate Federasiyasının yeniyetmə və gənclər arasında 21-ci respublika birinciliyi keçirilib.*




Vətən müharibəsində qazanılan zəfərin ildönümünə həsr olunmuş yarışda Naxçıvan Karate-do Federasiyasının 6 idmançısı iştirak edib. Təmsilçilərimizdən 3-ü mükafatçılar sırasına düşməyi bacarıb.

Nəticələrə əsasən 18-20 yaş kateqoriyası üzrə İmran Həsənov (-60 kiloqram), 16-17 yaşlılarda Fatimə Bədəlova (59 kiloqram) və 18-20 yaşlılar arasında Rəşad Qasımov (-67 kiloqram) bürünc medal qazanıblar.

İdmançılara diplom, medal və xatirə hədiyyəsi təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan mətbəxi*

## Süfrələrimizin ləziz qış təamı

*Milli mətbəx nümunələrimiz xalqımızın qədim tarixi, yüksək mədəniyyəti ilə birbaşa bağlıdır. Bu baxımdan Naxçıvanın zəngin mətbəx nümunələri diqqəti cəlb edir. Bu torpaqda bitən hər şey, sanki təkrarsızdır. Göy-göyərti, meyvə-tərəvəz hər yerdə bitsə də, Naxçıvan torpağında yetişdirilən məhsullar digərlərindən dad-tamı ilə seçilir, həmçinin heyvandarlıq məhsulları da çox fərqlənir. Həmin məhsullardan hazırlanan yeməklər də, təbiidir ki, heç bir yerdə bu qədər ləzzətli olmur. Bunlar arasında qış yeməkləri özünəməxsus yerə malikdir. Bu gün sizə Naxçıvan qovurmasından danışmaq istəyirəm. Elə ki havalar soyudu, diyarımızın qış mətbəxinin vacib nemətlərindən qovurma hazırlamağın da vaxtı çatıb deməkdir. Onu da qeyd edim ki, bu mətbəx nümunəsi təkcə Naxçıvana məxsus olduğu üçün elə "Naxçıvan qovurması" adlanır.*



Biz də bu günlərdə Naxçıvan şəhərindən Şərur rayonuna üz tutaraq qovurma hazırlığı görən Mələk xalanın qonağı oluruq. Öyrənirik ki, Mələk xalanın oğlu Nail qəssabdır. 8 ildir ki, bu işlə məşğuldur, hazırda da Tumaslı kəndində dövlət qayğısı ilə yaradılan müasir xidmət mərkəzində qəssablıq edir. Qardaşı Natiq də ona bu işdə yaxından köməklik göstərir. Bu söhbətdən sonra Mələk xaladan qovurmanın hazırlanması barədə məlumat alıram:

– Deməli, qızım, əvvəlcə soyulmuş quzunu elə ağacdaca hissələrə bölüb, yerə sərilmiş örtüyün üstündəki ləyənlərə yığırıq ki, ət bir az soyusun. Daha sonra ət baltası ilə qovurmalıq ölçüdə əti doğrayırıq. Bu arada bir kənarda da quzunun quyruğunu doğrayıb ocağa qoyuruq ki, əriməkdə olsun. Elə olmalıdır ki, ət qaynayıb bişənə kimi yağ süzülüb hazır olsun. Doğranmış ətləri tər-təmiz yuduqdan sonra ocağın üzərinə qoyulacaq qazanın kənarlarını əvvəlcə palçıqla suvayırıq ki, ocağın qarasını, hisini sonra yumaq asan olsun. Elə ki ət ocağa qoyuldu, qaynara düşənə qədər diqqətli olmalısan ki, köpük vaxtında yığılsın, yoxsa ətin rəngi tündləşib bulanıq olar. Qovurmanın dadlı çıxması və uzun müddət saxlanılması üçün əsas məsələlərdən biri də onun duzunun qaydasında olmasıdır. Duzu az olan qovurma qış gəlməmiş öz keyfiyyətini itirər. Qovurmanın həm dadlı, həm də uzun müddət saxlanılması üçün yalnız kəsilmiş heyvanın quyruq, yaxud iç yağı üzərini tam örtmək şərtilə əlavə olunmalıdır. Yəni "öz yağı özünü basmalıdır". Üzərinə başqa yağlar əlavə olunmuş qovurmanın keyfiyyəti də, dadı da az olar. Ət qaynayıb hazır olduqdan sonra çömçə ilə süzgəclərə yığırıq ki, suyunu süzsün. Bizim yerlərdə qovurulmaq üçün pörtlədilən ətin suyuna "cığatay", "işgənə", "təngov", bəzi yerlərdə "şor suyu" deyirlər. Qazanın içərisində bir neçə tikə ət saxlayan Mələk xala gəlini və qızını səsləyərək deyir ki, evdən boşqabları gətirin, oturaq nahar edək ət suyunu süzənə qədər. Qovurma bişirilən gün ailə mütləq süfrə başına yığışıb quru lavaş doğraması ilə bu yeməkdən ləzzətlə yeyər. Qızlar quru lavaşla bir neçə boşqab gətirdilər. Mələk xala boşqabların hər birinə ət və bir-iki çömçə cığatay qoyaraq bildirir ki, qovurmadan da, cığataydan da yaxın qonşulara pay tutmaq dədə-babadan adətimizdir. Yeməkdən sonra hazır əti ocağın üstündə dağ olan quyruq yağının içərisinə tökürük. Mələk xala əti qaşıqla qarışdırır və deyir ki, əti bir az diri götürmək lazımdır, çünki onu qovuranda həm yaxşı qızarmaz, həm də qarışdırdıqca əzilər. Şərur rayonunun bir çox kəndlərində qovurmanı iki cür hazırlayırlar, – deyən Mələk xala vurğulayır ki, onlardan biri ətin qaynadıb süzülərək qızardılmasıdır, digəri isə onun suyunu süzmək əvəzinə hər qazana bir-iki stəkan su töküb öz suyunun çıxması üçün vam oda qoyulmasıdır. Bu cür qovurmanı hazırlamaq üçün körpə, altaylıq quzu seçilir. Ət yuyulub qazana tökülür, üzərinə bir az su əlavə olunur. Ət öz suyunda qaynadılır və sonra suyu tamam çəkilənə yaxın əvvəldən hazırladığımız quyruq və ya zövqə görə əridilmiş kərə yağını üstünə əlavə edir, duzunu vururuq. Qovurma tam hazır olanda eyni qaydada qablara yığıb qışa saxlayırıq. Onu da deyim ki, bu üsulla hazırlanan qovurma daha dadlı olur, çünki öz suyunda bişir. Həmçinin bu qış azuqəsi, adətən, quzu ətindən olsa da, bəzən hinduşqa, qaz, dana əti qovuranlar da olur. Mələk xala ocağın üstündəki qovurmanın bişib-bişməməyinə baxır, hazır olduğunu bildirir. Yuyulub qurulanmış çini vedrəyə əvvəl əti yığır, sonra yağı süzüb üzərinə tökür. O deyir ki, qovurmanı yığdığımız qabın içərisi quru olmalıdır. Yığdıqdan sonra qabın qapağını örtmürük ki, buğlanıb qapağında əmələ gələn su yağa qarışar, bu da qovurmanın tamını dəyişər. Bir müddət sonra onun yağı donduğu üçün aşağı enir. Bu zaman ətin üstü örtülənə kimi yağ tökür və qapağını bağlayırıq.

Mələk xala onu da əlavə edir ki, qovurma hazırlandığı vaxtdan 20-25 gün qalmalıdır ki, özünü tutsun. Nənə-babadan qalan bu adətə görə, qovurma qabının ağzı dekabr ayının sonlarında açılmalıdır. Öyrənirəm ki, qovurmadan bozbaş, yumurta, əriştə aşı, yarma durusu və digər yeməklərdə istifadə olunur.

Mələk xala və digər xanımlarla da sağollaşıb yola düşürəm.

Bu gün Naxçıvan şəhərində fəaliyyət göstərən "Müasir məkan" ət və ət məhsulları emalı müəssisəsində bir və iki kiloqramlıq saxsı qablarda Naxçıvan qovurması istehsal olunur. Bu məhsulun şəhərimizin ən böyük marketləri, "Naxçıvan məhsulları" satış mağazası ilə yanaşı, ölkəmizin digər bölgələrində də fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalarında satışı təşkil edilir. Həmçinin diyarımızda keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalındakı pavilyonların çoxunda da Naxçıvan mətbəxinin bu ləziz nümunəsi nümayiş olunur.

*Elə ki şaxtalı, sazaqlı qış qapını alacaq, naxçıvanlı olmayan həmvətənlərimiz belə, bu diyarın saf havası, buz bulaqlarının suyu, min cür ot-ələfi ilə bəslənən, "duzu özündən olan" heyvanların ətindən, necə deyərlər, "min bir pəstah vurularaq" bişirilən qovurmadan ağız ləzzəti ilə dadmaq üçün süfrə başına yığışacaqlar. Bizlər isə "Ruziniz bol, süfrələriniz bərəkətli olsun", – deyə Naxçıvan mətbəxinin çeşid-çeşid, dadı damaqdan getməyən ləziz təamları haqqında növbəti yazı hazırlamaq üçün sizlərdən ayrılırıq.*

✍ **Aytac CƏFƏRLİ**

### İtmişdir

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti ev 78, mənzil 4 ünvanında Axundova Zəhra Məmməd qızının adına olan 12673 inventar nömrəli texniki pasport və MH-0012169 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Ələsgərov Ramil Abdulla oğlunun adına olan JN-1555A nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 913